**Elçin QAFARLI**
*Azərbaycan Respublikasının TÜRKSOY Təşkilatındakı nümayəndəsi*
*ADMİU-nun doktorantı*
*e-mail: elchingfarli@gmail.com*

# HEYDƏR ƏLİYEVİN "BİR MİLLƏT, İKİ DÖVLƏT" KONSEPSİYASINDA MƏDƏNİ İNTEQRASİYA MƏSƏLƏLƏRİ

**Xülasə:** *1991-ci ildə Sovet İttifaqının süqutundan sonra Azərbaycanda mədəni inteqrasiya müzakirə mövzusuna çevrildi. Azərbaycan xalqının ulu öndəri Heydər Əliyev mədəni əlaqələrin möhkəmləndirilməsi yolu kimi "Bir millət, iki dövlət" konsepsiyasını təqdim etdi. Bu konsepsiya Azərbaycan və Türkiyə xalqlarının eyni millətin bir hissəsi olduğu, lakin milli sərhədlərlə ayrıldığı fikrini əks etdirir. Heydər Əliyev şəxsiyyəti və fəaliyyəti 20-ci əsrin ikinci yarısında keçmiş SSRİ və Azərbaycanın ictimai-siyasi mühitində formalaşmış, o, peşəkar siyasətçi, siyasətçi və dövlət xadimi kimi dünyada tanınıb. Heydər Əliyevi bir lider kimi digərlərindən fərqləndirən mühüm keyfiyyət ondan ibarətdir ki, o, Azərbaycana iki siyasi sistemdə rəhbərlik etmiş və bütün fəaliyyətini Azərbaycan Respublikasının yüksəlişinə, ictimai-siyasi tələblərə uyğun olaraq xalqın mənəvi-mədəni inkişafına həsr etmişdir. hər dövrün tələbləri.*

**Açar sözlər:** *Heydər Əliyev, Azərbaycan, Türkiyə, mədəni, konsepsiya, əlaqələr, bir millət, iki dövlət, TÜRKSOY, münasibətlər, tərəfdaşlıq, Atatürk.*

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra ölkənin qarşısında duran mühüm vəzifələrdən biri milli mənafelərə əsaslanan xarici siyasət kursunun müəyyən edilərək həyata keçirilməsi idi. Ölkəni düşdüyü ağır vəziyyətdən çıxarmaq üçün səmərəli, praqmatik xarici siyasət kursunun müəyyən edilməsi zərurəti yaranmışdı.

1993-cü ildə xalqın tələbi ilə yenidən respublika rəhbərliyinə qayıdan Heydər Əliyev ilk günlərdən Azərbaycanın xarici siyasətini yeniləşdirdi və ölkənin strateji maraqları əsasında yenidən qurdu. Ölkənin mənafelərini qorumaq istiqamətində hərtərəfli ölçülüb-biçilmiş addımların atılmasının vacibliyini vurğulayan Ulu Öndər Azərbaycanın dövlətçilik mənafelərini hər şeydən uca tutaraq müxtəlif dövlətlərin respublikamız üzərində qurduqları iqtisadi maraq dairəsi uğrunda mübarizələrini diqqətə alaraq, xüsusi taktiki və strateji gedişlər etdi. Bununla əlaqədar xarici siyasət kursunda mövcud reallıqlar nəzərə alınaraq, ölkənin mənafelərinin qorunmasına istiqamətlənmiş əməli işlər həyata keçirildi. Müstəqil Azərbaycan Respublikasının beynəlxalq əlaqələr sistemində yeri, Qərb ölkələri, MDB dövlətləri, türkdilli dövlətlər və Türkiyə ilə, nüfuzlu beynəlxalq təşkilatlarla münasibətlərin prioritetləri müəyyənləşdirildi. Bu ölkələrlə iqtisadi, ticari və mədəni əməkdaşlıq məsələlərinə xüsusi önəm verildi.

Elmin, təhsilin, mədəniyyətin böyük himayəçisi Heydər Əliyevin ölçülüb-biçilmiş yeni xarici siyasət kursunda Azərbaycanla qonşu olan ölkələrlə münasibətlərə xüsusi diqqət yetirilirdi. Belə ki, Türkiyə ilə münasibətlərdəki dərin düşünülmüş çox ağıllı dəyişikliklər isə ölkəmiz üçün, həm də ümumiyyətlə, ümumtürk birliyinin inkişaf etdirilərək möhkəmləndirilməsi üçün çox əhəmiyyətli oldu. Bu işdə Prezident Heydər Əliyevin Türkiyəyə səfərləri mühüm rol oynadı. Nəzərə alındı ki, Türkiyənin əsası Atatürk tərəfindən qoyulmuş ənənəvi xarici siyasəti ilk növbədə ölkənin, millətin mənafeyinə uyğun olan elə xətti əsas götürür ki, bu, təbii sərvətlərlə zəngin olmayan ölkənin iqtisadi

inkişafına kömək olsun. Odur ki, iki ölkə arasında strateji tərəfdaşlıq haqqında imzalanmış sənəd başqa amillərlə yanaşı həmin cəhəti əsas götürərək münasibətləri və dostluğu yeni, yüksək əməli əməkdaşlıq səviyyəsinə qaldırmaqla bu sahədə böyük imkan və perspektivlər açdı. Bu illər ərzində Türkiyə ilə əlaqələr “Bir millət, iki dövlət” konsepsiyası əsasında, sarsılmaz təməl üzərində qurulmuşdur.

Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi ölkəmizin xarici siyasətinin çox mühüm tərkib hissəsidir. Hər iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərləri ikitərəfli siyasi, iqtisadi və mədəni əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynamışdır. Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Türkiyə də daxil olmaqla, bütün türkdilli dövlətlərin ümumi maraq və mənafelər naminə konsolidasiyası istiqamətində inamlı addımlar atmışdır.

Türkiyə ilə münasibətlərin dinamikası və əhatəliliyi bunun əyani sübutlarındandır. Hal hazırda iki qardaş dövlət arasında bütün sahələr üzrə əməkdaşlıq yüksələn xətt üzrə inkişaf edir. Azərbaycanın ən yaxın müttəfiqi olan Türkiyə ilə mədəni əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində Azərbaycan lazım olan bütün addımları atır. [Novruz MƏMMƏDOV, Xalq qəzeti.- 2010.- 9 may.- səh. 5-6.]

Heydər Əliyev tərəfindən belə bir konsepsiya, strateji xətt hazırlanıb həyata keçirilməyə başlandı ki, dövlətin, dövlətçiliyin təməl prinsipləri içərisində milli təhsil, elm və mədəniyyət müstəsna yer tutur. Buna görə də o, prioritet sahə olan təhsilə, elmə, mədəniyyətə qayğını dövlətin əsas strateji xətti kimi ön plana çəkdi. Qeyd etmək lazımdır ki, təhsilə, elmə, mədəniyyətə böyük qayğı Heydər Əliyev şəxsiyyətinin aparıcı əlaməti, onun daxili ziyalılığının, maarifpərvərliyinin mühüm təzahürü olub, xalqını, millətini sivil dünyanın inkişaf etmiş xalqlarından biri kimi görmək istəyinin parlaq ifadəsi idi.

Türkiyə ilə Azərbaycan arasında mövcud olan yüksək-səviyyəli əlaqələr, dostluq və qardaşlıq münasibətləri dərin tarixi köklərə əsaslanır. Hər iki ölkənin eyni dinə, dilə, ortaq mədəniyyətə və adət-ənənələrə malik olması ölkələrimiz arasında əlaqələri daim möhkəmləndirib və ən yüksək səviyyəyə çıxarıb. Türkiyə ilə Azərbaycan həm çətin, həm də xoş günlərdə daim bir-birilərinin yanında olmuşlar. Azərbaycan yenidən öz müstəqilliyini qazandıqdan sonra Türkiyə ilə Azərbaycan arasında münasibətlər yeni mərhələyə qədəm qoydu. 1991-ci il noyabrın 9-da onu tanıyan ilk dövlət məhz Türkiyə oldu. İki qardaş ölkə arasındakı münasibətlərin inkişafında Heydər Əliyevin misilsiz xidmətləri var. Azərbaycan ilə Türkiyə arasındakı əlaqələri “Bir millət, iki dövlət” kimi xarakterizə edən Ulu Öndər ölkələrimiz arasında münasibətlərin inkişaf etməsi istiqamətində böyük əmək sərf etmişdir.

Ötən illər ərzində Türkiyədə B.Vahabzadə, Anar, Elcin, H.Cavid, Z.Yaqub, M.İsmayıl və s. kimi görkəmli şair və yazıçılarımızın əsərləri Türkiyə türkcəsinə tərcümə olunaraq geniş oxucu kütləsinə təqdim olunub. Türkiyədə ədəbi əlaqələrimizin inkişafında Azərbaycanşunaslıq elminin görkəmli tədqiqatçısı Yavuz Akpınarın xidmətləri xususilə qeyd olunmalıdır. [Akpınar Y. Azəri araşdırmaları, İstanbul: Dərgah yayınları, 1994.]

Hələ Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində olarkən, Türkiyə ali təhsil müəssisələrində Azərbaycan tarixi və ədəbiyyatından dərs deyən müəllimlərin respublikamıza gələrək azərbaycanlıların həyatı, məişəti, fəaliyyəti ilə tanış olmalarına, Azərbaycan mənbələri əsasında araşdırmalar aparmalarına şərait yaratmışdı. 1981-ci ilin mart ayında Ərzurum Universitetində Azərbaycan ədəbiyyatını tədris edən, Mirzə Fətəli Axundzadənin əsərlərini Türkiyə türkcəsinə çevirən Yavuz Akpınarın Azərbaycana gəlib tədqiqat işi aparmasına nəinki icazə verildi, eyni zamanda, bütün xərcləri Heydər Əliyevin göstərişi ilə Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti tərəfindən ödənildi. Bundan sonra Yavuz Akpınar Azərbaycan

ədəbiyyatı haqqında dəyərli əsərlər yazmışdır. [Ömərov V. Ulu Öndər Heydər Əliyevin sovet dövründə Azərbaycan-Türkiyə mədəni əlaqələrini genişləndirməsi // Səs qəzeti. 19 mart 2013, səh.15.]

Müstəqillik illərində Azərbaycan Turkiyə ədəbi əlaqələrinin daha da inkişaf etdirilməsi istiqamətində Azərbaycan alimləri misilsiz işlər görmüşlər. AMEA Nizami adına Ədəbiyyat İnstitutu, AMEA Z.Bunyadov adına Şərqşunaslıq İnstitutunda Turk filologiyası şöbəsi, AMEA Folklor İnstitutunda Türk xalqları folkloru şöbəsi, BDU-da Türkologiya kafedrası, ADPU-da Türk odası, TÜRKSOY kafedrası və s. elmi müəssisələrində ədəbi əlaqələrin inkişafı istiqamətində alimləri tərəfindən görülən işlər danılmazdır. Hazırda da Azərbaycan-Turkiyə ədəbi əlaqələri geniş vüsətlə davam etdirilməkdədir.

Zəngin və qədim mədəni irsə sahib olan türk xalqları da tarixin bəxş etdiyi bu gözəl fürsətdən istifadə edərək milli mədəni özünəqayıdış yolunda ciddi addımlar atmağa başladı. Eyni soya, dilə, tarixi və mədəni keçmişə, adət-ənənəyə malik olan xalqlarımızın mənəvi həyatında gedən prosesləri əlaqələndirmək və düzgün istiqamətləndirmək məqsədi ilə həmin dövrdə Beynəlxalq TÜRKSOY Təşkilatının yaradılması bu yolda vaxtında atılmış faydalı bir addım oldu.

1993-cü ildə qurulan TÜRKSOY-un tutduğu əsas xətt dünyanın müxtəlif coğrafiyalarında yaşayan türkdilli xalqların bir-birinin mədəniyyətini tanıması və qarşılıqlı bəhrələnməsidir. Daha doğrusu türk xalqlarının mədəni irsin öyrənilməsi, qorunması və təbliğində bir araya gəlməsidir [Beynəlxalq TÜRKSOY təşkilatının XV toplantısında Azərbaycan Respublikasının Mədəniyyət Naziri Polad Bülbüloğlunun çıxışı. "Mədəni-maarif" jurnalı, 2001, № 1-2, səh.8-10.]

Beynəlxalq TÜRKSOY Təşkilatı çərçivəsində milli mədəniyyətimizin dahi şəxsiyyətlərinin, bəşər mədəniyyətinin inciləri sayılan milli eposlarımızın əlamətdar ildönümlərinin qeyd edilməsi, onların əsərlərinin tərcümə edilərək nəşr edilməsi və təqdimatlarının keçirilməsi, xalqlarımızın həyatındakı mühüm və tarixi hadisələrin birlikdə qeyd edilməsi artıq ənənə halını almışdır. Bu mənada zəngin mədəni dəyərlərimizlə bağlı ortaq layihələrin, tədbirlərin, konkret işlərin bu təşkilat çərçivəsində gələcəkdə də hazırlanıb həyata keçirilməsi hərtərəfli əlaqələrimizi genişləndirmək baxımından xalqlarımızın yaxınlaşması üçün böyük əhəmiyyətə malikdir.

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin türkdilli ölkələrin mədəniyyət nazirlərinin Daimi Şurasına ünvanladığı müraciətindən də bu təşkilata nə qədər əhəmiyyət verildiyi aydın görünür: "Böyük məmnuniyyət hissi ilə qeyd edirəm ki, TÜRKSOY-un qurucu ölkələrindən olan Azərbaycan Respublikası bu hərəkatın elə ilk günlərindən onun fəal iştirakçısı olmuşdur. TÜRKSOY-un məqsəd və vəzifələri müstəqil Azərbaycan dövlətinin mədəniyyət sahəsindəki strategiyasına tam uyğundur. Buna görə də biz TÜRKSOY-un fəaliyyətinə böyük əhəmiyyət verir və onu dəstəkləyirik" ["Ədəbiyyat qəzeti", 19 iyul 2002-ci il]

Azərbaycan Respublikasının Prezidenti H.Əliyev 2001-ci il yanvarın 16-da Prezident sarayında TÜRKSOY təşkilatının XV toplantısında iştirak edən türkdilli ölkələrin nümayəndələrini qəbul edərək bildirmişdir ki, "Bu təşkilatın əsas məqsədi birinci növbədə bizim tarixi keçmişimizi, köklərimizi, mədəniyyətimizi və bunların hamısının müştərək olduğunu yenidən araşdırmaq və bugünkü nəsillərə çatdırmaqdan ibarətdir". O, TÜRKSOY təşkilatının əhəmiyyətindən bəhs edərkən bunun iqtisadi və ticarət əlaqələrinə toxunaraq demişdir ki, "Dünya ticarətsiz, iqtisadiyyatsız yaşaya bilməz. Ticarətin, iqtisadiyyatın nə milliyyəti var, nə də milli kökü var. Amma mədəniyyətin, dilin, milli dəyərlərin, ənənələrin – bunların böyük tarixi və dərin kökləri vardır. Bizim ədəbiyyatımızı, musiqimizi, tarixi köklərimizi sübut edən əsərlərimiz – bunların hamısı təbiidir ki, çox böyük əhəmiyyətə malikdir. Məsələn, biz keçən il "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyini keçirdik. Bütün türkdilli dövlətlərdən, təkcə türkdilli dövlətlərdən yox, bir çox ölkələrdən, o cümlədən Avropa ölkələrindən nümayəndə heyətləri gəlmişdi. Biz "Kitabi-Dədə Qorqud" haqqında, demək olar ki, o

bir il içərisində öyrəndiyimizin heç on faizini də bilmirdik. Amma indi “Kitabi-Dədə Qorqud” hamı üçün ulu babadır. Birisi Dədəm Qorqud deyir, biri Ata Qorqud deyir, digəri Dədə Qorqud deyir. …Sizin gördüyünüz işlər xalqımız üçün ən dəyərli işlərdir. Bu təşkilat yaşayacaq, inkişaf edəcək və gələcək nəsillər üçün də çox yeni şeylər yaradacaqdır” [Heydər Əliyev və Şərq, 6 cilddə, I kitab (Müəllif-tərtibçilər: Q.Allahverdiyev, V.Sultanzadə). Bakı, “Tural–Ə” NPM, 2002, səh.170]

Bu tarixi-mədəni proseslər fonunda bir fakt özünü tam aydınlığı ilə büruzə verir ki, müasir dünyada mədəni inteqrasiya, qloballaşma geniş vüsət aldıqca Azərbaycan Respublikasının bu prosesdə oynadığı rol da getdikcə artır. Dünya dövlətləri, beynəlxalq təşkilatlarla ikitərəfli əlaqələr inkişaf etdirilir, qarşılıqlı razılaşmalar əldə edilir, mədəni əməkdaşlıq genişləndirilir. Xüsusilə də, Azərbaycanın Türkiyə və digər türk dövlətləri ilə münasibətlərində yeni keyfiyyət dəyişiklikləri müşahidə edilir. Bu dəyişikliklər özünü türkdilli dövlətlərin mədəni əməkdaşlığında daha qabarıqlığı ilə göstərir. Nəinki Azərbaycan – Türkiyə elmi-mədəni əlaqələri, bütövlükdə Türk Dünyasının mədəni inteqrasiyası istiqamətində TÜRKSOY-un xüsusi rolu vardır.

23-26 mart 1996-cı il tarixində Ankarada keçirilən IV “Türk dövlətləri və toplumlarının dostluq, qardaşlıq və əməkdaşlıq” qurultayının işində iştirak etmək üçün Azərbaycan Respublikasının 25 nəfərlik nümayəndə heyəti Ankaraya səfər etdi. Qurultayda Heydər Əliyevin bir deyimi bir daha xatırladılmışdır: “Azərbaycan üçün Türkiyədən yaxın dost, qardaş dövlət yoxdur. Türkiyə üçün də bütün ölkələr, xalqlar arasında Azərbaycan qədər dost, qardaş ölkə yoxdur... Heç bir qüvvə, heç bir kəs, heç bir ölkə Türkiyə – Azərbaycan dostluğuna mane ola bilməz. Bizim dostluğumuz sarsılmazdır, əbədidir və əbədi olacaqdır”. [Heydər Əliyev və Şərq, 6 cilddə, III kitab: Türkiyə Cümhuriyyəti (Müəllif-tərtibçilər: Qaley Allahverdiyev, Vəhdət Sultanzadə). Bakı, “Çaşıoğlu”, 2003, səh. 70]

Heydər Əliyevin “Bir millət iki dövlət” konsepsiyası Türkiyə və Azərbaycan xalqları arasındakı birlik və əlaqə lap qədim zamanlardan həyatın bütün sahələrində özünü büruzə vermişdir; bu əlaqələr teatr sənəti sahəsində də əhəmiyyətli olmuşdur. Yalnız Azərbaycanda deyil, bütün Şərqdə ilk dramaturq kimi tanınan M.F.Axundzadənin komediyalarının bir çox ölkələrdə olduğu kimi, Türkiyədə də səhnə əsərlərinin və teatr sənətinin yaranmasına təsiri şübhəsizdir. [Kərimov İ. Azərbaycan – Türkiyə teatr əlaqələri. Bakı, Nağıl evi, 2000, səh.5]

Konsepsiya hər iki ölkə tərəfindən rəğbətlə qarşılanmış və o vaxtdan Azərbaycan və Türkiyə arasında mədəni mübadiləni genişləndirmək üçün istifadə olunur. “Bir millət, iki dövlət” konsepsiyası çərçivəsində Azərbaycan və Türkiyə mədəni inteqrasiyanı təşviq etmək üçün bir sıra təşəbbüslər həyata keçiriblər. Bunlara tələbə mübadiləsi proqramları, mədəniyyət günləri, incəsənət festivalları və birgə mədəni layihələr daxildir. Bu tədbirlər iki ölkə arasında mədəni mübadilənin və inteqrasiyanın təşviqinə kömək edir.

Qarşılıqlı hörmət və anlayışa əsaslanan və daha güclü mədəni əlaqələr qurmağa çalışan Azərbaycan və Türkiyə arasında mədəni inteqrasiya iki ölkə arasında tarixi, dil və mədəni fərqləri ehtiva edən mürəkkəb bir məsələdir. Heydər Əliyevin “Bir millət, iki dövlət” konsepsiyası Azərbaycan və Türkiyə arasında mədəni inteqrasiyanı inkişaf etdirmək üçün yuxarıda qeyd olunan tədbirlər həyata keçirilsə də, qarşılıqlı mədəni əlaqələrin inkişafı üçün daha çox iş görülməlidir.

## Ədəbiyyat siyahısı:


1. “Ədəbiyyat qəzeti”, 19 iyul 2002-ci il
2. Akpınar Y. Azəri araşdırmaları, İstanbul: Dərgah yayınları, 1994
3. Beynəlxalq TÜRKSOY təşkilatının XV toplantısında Azərbaycan Respublikasının Mədəniyyət Naziri Polad Bülbüloğlunun çıxışı. “Mədəni-maarif” jurnalı, 2001, № 1-2, s.8-10.

4. Heydər Əliyev və Şərq, 6 cilddə, I kitab (Müəllif-tərtibçilər: Q.Allahverdiyev, V.Sultanzadə). Bakı, "Tural–Ə" NPM, 2002, 384 s.
5. Heydər Əliyev və Şərq, 6 cilddə, III kitab: Türkiyə Cümhuriyyəti (Müəllif-tərtibçilər: Qaley Allahverdiyev, Vəhdət Sultanzadə). Bakı, "Çaşıoğlu", 2003, 472 s.;
6. Kərimov İ. Azərbaycan – Türkiyə teatr əlaqələri. Bakı, Nağıl evi, 2000, 202 s
7. Novruz MƏMMƏDOV, Xalq qəzeti.- 2010.- 9 may.- S. 5-6.
8. Ömərov V. Ulu Öndər Heydər Əliyevin sovet dövründə Azərbaycan-Türkiyə mədəni əlaqələrini genişləndirməsi // Səs qəzeti. 19 mart 2013, s.15.

**Elchin GAFARLİ**
*Representative of the Republic of Azerbaijan in the TURKSOY organization,*
*PhD student of ASUCA*
*e-mail: elchingfarli@gmail.com*

## ISSUES OF CULTURAL INTEGRATION IN HEYDAR ALIYEV'S "ONE NATION, TWO STATES" CONCEPT

**Summary:** *Cultural integration became a topic of discussion in Azerbaijan after gaining independence from the Soviet Union in 1991. The great leader of the Azerbaijani people, Heydar Aliyev, presented the concept of "One nation, two states" as a way to strengthen cultural ties between Azerbaijan and Turkey. This concept reflects the idea that the peoples of Azerbaijan and Turkey are part of the same nation, but separated by national borders. Heydar Aliyev's personality and activities were formed in the social and political environment of the former USSR and Azerbaijan in the second half of the 20th century, and he was recognized in the world as a professional politician, politician and statesman. An important quality that distinguishes Heydar Aliyev as a leader from others is that he led Azerbaijan in two political systems and devoted all his activities to the rise of the Republic of Azerbaijan and the moral and cultural development of the people in accordance with the socio-political requirements of each era.*

**Keywords:** *Heydar Aliyev, Azerbaijan, Turkey, cultural, concept, relations, one nation, two states, TURKSOY, relations, partnership, Atatürk.*